DOI:10.30546/gdu.2023.118-124

UOT: 94

# İNFORMASİYANIN SEÇİLMİŞ YAYILMASI TARİXİNDƏN VƏ O DÖVLƏT QULLUQÇULARINA KİTABXANA-İNFORMASİYA XİDMƏTİNİN ƏSAS METODLARINDAN BİRİ KİMİ

***Dosent Kazımi Pərviz Firudin oğlu, Həsənova Aysel Vaqif qızı***
***Bakı Dövlət Universiteti***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
**pkazimi@mail.ru, aysel.hasanova@admiu.edu.az**

**Xülasə:***Məqalənin əsas məqsədi İnformasiyanın Seçilmiş Yayıılması metodunun tarixini öyrənmək, onun dövlət qulluqçularına kitabxana – informasiya xidmətinin metodlarından biri kimi tədqiq etməkdir. Məqalədə tədqiqata dövlət qulluqçularına kitabxana-informasiya xidmətinin metodlarından hesab olunan İnformasiyanın Seçilmiş Yayılması metodu cəlb edilmişdir. İlk öncə bu metodun tarixi araşdırılır. Ardınca is əmetodun texnologiyası öyrənilir. İnformasiyanın seçilmiş yayılması sistemi qarşısında duran tələblər araşdırılır. Məqalə yazılarkən təhlil və müqaisə metodlarından istifadə edilmişdir. Tətbiqi əhəmiyyəti: material ali təshil müəssisələrində mühazirə və seminarlarda istifadə oluna bilər. Məqalə kitabxanaçılıq, tarix, təhsil sahəsi ilə maraqlananlar üçün də faydalıdır.*

**Açar sözlər:** dövlət qulluqçuları, tarix, kitabxana-informasiya xidməti
**Ключевые слова:** государственные служащие, история, библиотечно-информационная служба
**Key words:** civil servants, history, library and information service

## Giriş

Dövlət qulluqçularının biliyinin artırılması, xüsusilə onların informasiya ilə təmin edilməsi vəzifəsi sosial institutlar olan kitabxanalar tərəfindən yerinə yetirilir. Dövlət qulluqçularının informasiya təminatı kitabxanalarda dövlət qulluqçularına kitabxana-informasiya xidmətinin səviyyəsindən asılıdır. Bu zaman dövlət qulluğunun özü və onun informasiya təminatının təhlili yolu ilə bu fenomenin hərtərəfli öyrənilməsinə üstünlük verilməlidir. Bu hər hansı bir insan fəaliyyətinin yüksək effektiv və ictimai aktiv davranışının müəyyən şərtlərinin praktik şəkildə həyata keçirilməsini, dəstəklənməsini və təmin edilməsini nəzərdə tutur və dövlət qulluqçularına kitabxana-informasiya xidməti işinə hərtərəfli yanaşmağa imkan verir. Bu yanaşmaya əsasən, kitabxana-informasiya xidmətinin idarəetmə işini təşkil edən dinamik bir vasitə, tənzimlənən proseslər sistemi, vəzifəli şəxslərin informasiya təminatı məqsədi ilə xarakterizə edilə biləcəyi görünür. Bütün bunlar, məlumatın mahiyyətini və dövlət qulluğunun informasiya təminatını dövlət orqanı ilə xarici informasiya mühiti arasındakı informasiya axınını xarakterizə etməyə imkan verir. Sosial idarəetmə nöqteyi-nəzərindən dövlət qulluqçularının informasiya təminatının yalnız özünə xas olan daxili bir quruluşu var.

Dövlət qulluqçularına kitabxana-informasiya xidmətinin gündəlik praktikasında ən sadə və ən geniş yayılmış metod informasiya seçilmiş yayılması metodudur.

## Əsas hissə

İnformasiyanın seçilmiş yayılması sistemi termini ilk dəfə Amerikanın IBM şirkətinin əməkdaşı X.P. Lun tərəfindən 1958-ci ildə avtomatlaşdırılmış sistem kimi təklif edilmişdir. Alimə görə “İnformasiyanın seçilmiş yayılması, hər hansı bir mənbədən alınan yeni məlumatları aktual iş və ya maraq üçün istifadə olunma ehtimalı yüksək olan yerlərə yönəldən xidmətdir. " (1, s. 61-62)

DOI:10.30546/gdu.2023.118-124

DÖST 7.73-96 standartına görə İnformasiyanın seçilmiş yayılması "informasiya istehlakçılarının davamlı informasiya tələblərinə uyğun olaraq, informasiya axtarış sistemində yenidən ortaya çıxan məlumatların yayılması" şəklində təsvir edilir. (2, s. 2)

"Kitabxanaçının məlumat kitabı"nda informasiyanın seçilmiş yayılması aşağıdakı şəkildə xarakterizə edilir: *"Fərdi xidmət metodu mütəxəssislərə həm kitabxanaya daxil olan, həm də biblioqrafik mənbələr haqqında daima məlumat verməkdən ibarətdir."* (3, s.154) Fərdi xidmətə aşağıdakı hallarda informasiyanın seçilmiş yayılması deyilir:

- razılaşdırılmış tezlikdə operativ həyata keçirilmişdir;
- iki kontura malikdir, yəni oxucu əvvəlcə biblioqrafik məlumatla təmin olunur və yalnız sonra onun tələbi ilə sənədlərin tam mətnləri verilir;
- abunəçinin ehtiyacları aydınlaşdırıldığı üçün əks əlaqə qəbzlərinin təhlilini təmin edir [3, s.154].

İSY tələbatçının, o cümlədən dövlət qulluqçusunun daimi müraciətinə uyğun olaraq kitabxanaya cari ildə daxil olan sənədlər barədə sistemli informasiya təminatı sistemidir. Bu sistem tələbatçını sorğusuna relevant sənədlərlə, onların surətləri ilə təmin edir.

İnformasiyanın seçilmiş yayılmasının əsas məqsədi oxucuların, o cümlədən dövlət qulluqçularının elmi, ictimai-siyasi, sosial biliklərini müasir səviyyədə saxlamağa kömək etmək, yerli və xarici elm, texnika və texnologiyanın nailiyyətləri nəzərə alınmaqla yeni elmi və ictimai-siyasi, sosial problemlərin qoyulması və onların səmərəli həlli üçün ilkin şərtlər yaratmaqdır.

Operativ kitabxana xidmətinin mütərəqqi formalarından biri olan bu sistem, dövlət qulluqçularının lazımi məlumatları axtarması üçün vaxt itkisini minimuma endirməyə və şübhəsiz ki, informasiya axtarışının səmərəliliyini artırmağa imkan verir.

İnformasiyanın seçilmiş yayılması sistemi aşağıdakı tələblərə cavab verməlidir:

- istifadəçilərə çatdırılan biblioqrafik informasiyanın maksimum dolğunluğu;
- sənədin annotasiyası;
- informasiyanın çatdırılmasının səmərəliliyi və qanunauyğunluğu;
- informasiya tələbatçısının daimi rəylərinin olması;
- istifadəçiyə sorğu daxil olduqdan dərhal sonra ilkin sənədlər və ya surətlərini təqdim etmək [4, s.4].

Biblioqrafik məlumatların maksimum dolğunluğu tələbi İSY rejimində dövlət qulluqçularına xidmət göstərərkən xüsusilə vacibdir.

Seçimin tamlığını təmin etmək üçün aşağıdakılar nəzərdən keçirilir:

1) ilkin məlumat mənbələri - yerli və xarici ədəbiyyat üzrə sənəd axını;

2) ikinci dərəcəli məlumat mənbələri: sahəvi informasiya orqanlarının referativ jurnalları; siqnal nəşrlərinin biblioqrafik mənbələri; xarici və yerli məlumat bazaları [4, s.5].

Sənədin məzmunu annotasiya, sərlövhənin xarici dildən tərcüməsi, açar sözlər vasitəsilə açılır. Bu təkcə sənədin məzmununun soğruya relevantlığı baxımından qiymətləndirməyə imkan vermir, həm də təqdim olunan məlumatların faydalılıq dərəcəsi barədə nəticə çıxarmağa şərait yaradır.

Biblioqrafik informasiyanın çatdırılmasının tezliyi və müntəzəmliyi tələbi, dövlət qulluqçusunun maraqlandığı mövzu ilə bağlı yeniliklərlə vaxtında tanış olması zərurəti ilə əlaqədardır. Qeyri-müntəzəm informasiya axını və ya informasiyanın gecikməsi məlumatı faydasız və ya təsirsiz hala gətirir.

İnformasiyanın seçilmiş yayılması sistemi üçün zəruri tələb, biblioqrafik məlumatların effektivliyini qiymətləndirməyə, dövlət qulluqçularına göndərilən sənədlər barədə bildirişlərin onların tələbinə uyğunluğunu qiymətləndirməyə imkan verən etibarlı şəkildə təşkil edilmiş, daim işləyən sistemdir.

DOI:10.30546/gdu.2023.118-124

Sistemin təşkili aşağıdakı mərhələləri əhatə edir:

- İSY sisteminin abunəçilərinin tərkibinin müəyyənləşdirilməsi;
- İnformasiya potensialının təhlili. Burada sistemə daxil ediləcək informasiya potensialının öncədən müəyyənləşdirilməsi və informasiya tələbatına uyğun təsdiqlənməsi nəzərdə tutulur.
- Sistemin saxlanılması üçün informasiya orqanı tərəfindən, o cümlədən kitabxanalar tərəfindən işlənmiş informasiya mənbələrinin müəyyənləşdiril-məsi və seçilməsi;
- Sistemə daxil olan sənədləri və tələbatları sistemləşdirmək üçün hazırlanmış informasiya axtarış dilinin seçilməsi və ya inkişafı;
- əks əlaqənin tətbiqi;
- sistemin texnoloji sxeminin yaradılması və onun kitabxananın təşkilati strukturu ilə əlaqələndirilməsi.

İnformasiyanın seçilmiş yayılması sisteminin işinin texnoloji sxemi aşağıdakı kimi təqdim edilə bilər [4, s.6].

Hazırda kitabxanalarda həm avtomatlaşdırılmamış (əl ilə), həm də avtomatlaşdırılmış İSY sistemləri işləyir.

Avtomatlaşdırılmamış İSY sistemlərində, ən azı, iki kartotekanın - sistemin abunəçilərinin və onların sorğusuna uyğun mövzuların saxlanılması lazımdır. Abunəçilərin informasiya ehtiyacları və İSY sisteminə daxil edilmiş sənədlərin məzmunu sistemin informasiya axtarış dili və mövzu başlıqlarının köməyi ilə göstərilir. Bir qayda olaraq, hər bir mövzu başlığına, İSY sisteminə daxil olarkən sənədlərin işlənməsini asanlaşdıran, abunəçilərə göndəriləcək siqnal kartlarının lazımi sayını təyin edən, həmçinin rəyləri təhlil edən şərti rəqəmsal kod verilir.

Eyni prinsip kompüterdə işləyən avtomatlaşdırılmış İSY sistemlərinin də əsasını təşkil edir: istehlakçılar tərəfindən tərtib olunmuş sorğular verilmiş sistemin informasiya axtarış dilinə (əksər hallarda, təsviredici) köçürülür və bir sıra informasiya axtarış əlaməti təşkil edərək kompüterin yaddaşına daxil edilir. Sistemə daxil olan biblioqrafik qeydlər eyni dildə indeksləşdirilir və sənədlərin axtarış əlamətləri massivini təşkil edir. Kompüter sənəd axtarış əlamətinin massivi ilə informasiya axtarışı əlamətinin massivini müqayisə edir və üst-üstə düşərsə abunəçilərə sənədlərin siyahısı şəklində biblioqrafik məlumat verir.

DOI:10.30546/gdu.2023.118-124




İnformasiyanın seçilmiş yayılması sistemləri ilə fərdi və kollektiv abunəçilərə informasiya xidməti təşkil etmək olar. Dövlət qulluqçularına kitabxana-informasiya xidməti zamanı birinci halda dövlət orqanları, nazirliklər, ASAN Xidmət, DOST mərkəzləri, ikinci halda isə ayrı-ayrı dövlət qulluqçuları çıxış edə bilər.

DOI:10.30546/gdu.2023.118-124

Kollektiv informasiya istehlakçılarının informasiya potensialı məmnunluğunu təmin edən İSY sistemlərinin olması heç bir şəkildə fərdi abunəçilərə xidmət edən İSY sistemlərinin təşkil edilməsini istisna etmir. Üstəlik, fərdi abunəçilərə xidmət etmək İSY sisteminin əsas vəzifəsidir, çünki bu vəziyyətdə bu sistemlərin bütün üstünlükləri özünü biblioqrafik məlumatların tamlığı və dəqiqliyi baxımından da göstərə bilər.

İSY tərkibi və abunəçilərinin sayı, həyata keçirdiyi tədqiqat və inkişaf layihələrinin əhəmiyyəti ilə müəyyən edilir. Abunəçilərin tərkibi kadr dəyişikliyindən və görülən işin mürəkkəbliyindən asılı olaraq hər il tənzimlənir. İSY sisteminin hər bir abunəçisi üçün abunəçi haqqında məlumat, xidmət göstərildiyi mövzu və ona göndərilən məlumat materiallarını daxil edən bir hesabat kartı tərtib olunur. Nəzərə alınmalıdır ki, abunəçilərin davamlı istəkləri İSY sisteminin istismarı zamanı düzəldilə bilər. Bu, ən çox işin mövzusu və ya istiqaməti dəyişdirildikdə və ya informasiya xidməti zamanı davamlı istəkləri dəqiqləşdirməklə baş verir.

Siqnal kartları İSY sisteminə göndərilir. Siqnal kartları ilkin mənbələrin biblioqrafik təsviri, bəzən annotasiyalar və ya şərhlərlə müşayiət olunur. Siqnal kartları nüsxələrindən həm abunəçilər tərəfindən tələb olunan əsas mənbələrin sonrakı seçimi, həm də digər informasiya xidmətlərində (məsələn, retro axtarış, biblioqrafik nəşrlərin hazırlanması və s.) istifadə üçün lazım olan kartotekalar doldurulur.

İnformasiyanın yayılması sistemində əks əlaqənin təşkili əks əlaqə qəbzlərinin qiymətləndirilməsi ilə həyata keçirilir. Qiymətləndirmə İSY sistemlərinin işləmə xüsusiyyətləri və sistemlərin tətbiq olunduğu təşkilatların xüsusiyyətləri nəzərə alınmaqla hazırlanır. Əks əlaqə qəbzlərində xidmətin keyfiyyətini ölçmək üçün göstəricilər yerləşdirilir. Bu göstəricilər 5 ballıq şkala ilə (0, 1, 2, 3, 4, 5) müəyyənləşir. Burada 5 - dəyərli, işdə istifadə ediləcəkdir; 4 – maraq yaradır; 3 - digər mənbələrdən məlumdur; 2 – maraq oyatmır; 1 - sorğunun mövzusuna uyğun gəlmir; 0 - orijinal mənbə (surəti) tələb olunur.

Əks əlaqə qəbzinin təhlilinə əsasən, İSY sisteminin fəaliyyətinin effektivliyi qiymətləndirilir, həm abunəçilərin, o cümlədən dövlət qulluqçularının tələbləri, həm də onlara göndərilən biblioqrafik informasiyanın tərkibi düzəldilir. Bundan əlavə, əks əlaqə qəbzi üçün sorğuların təhlili kitabxananın komplektləşdirilməsinin tematik planında düzəlişlər etməyə imkan verir. Bu, kitabxana fondunda olmayan sənədlər barədə məlumatların İSY sisteminə daxil edildiyi hallarda vacibdir. Bir sənədə bir neçə müraciət olunubsa, kitabxana istehlakçılara, o cümlədən dövlət qulluqçularına bu cür sənədlərin verilməsi (KAA alınması, istifadəsi, sənədlərin elektron çatdırılması) barədə qərar qəbul edir.

İSY sisteminin işinin effektivliyini müəyyənləşdirmək üçün dövlət qulluqçuları tərəfindən qiymətləndirmələrin təhlili əsasında müəyyən edilən relevantlıq və pertinentlik əmsallarından istifadə olunur.

İSY sisteminin səmərəliliyinin artması ilə ədədi baxımdan pertinentlik və uyğunluq əmsalları bir-birinə yaxınlaşacaqdır.

İSY sisteminin effektivliyini nəzərə almaq üçün digər (əlavə) əmsallardan da istifadə edilə bilər:

- Nüsxə əmsalı- Təkrarlanan arayışların sayının tərtib olunan arayışların sayına nisbəti ilə müəyyən edilir;
- Əks əlaqə əmsalı- Abonentdən alınan əks əlaqə qəbzlərinin sayının ona göndərilən siqnal kartlarının sayına nisbəti ilə müəyyən edilir.

Konkret dövr ərzində əks əlaqə qəbzini qaytarmayan abunəçilərə xidmətdən çıxma barədə xəbərdarlıq göndərilir. Sistemli şəkildə əks əlaqə qəbzini qaytarmayan abunəçilər İSY rejimində xidmətdən kənarlaşdırılır.

DOI:10.30546/gdu.2023.118-124

İSY sisteminin işinin kəmiyyət göstəriciləri aşağıdakı parametrlərə görə qiymətləndirilə bilər: abunə sayı, xidmət göstərilən mövzu sayı, abunəçilərin daimi informasiya tələblərinin sayı, abunəçilərə göndərilən siqnal kartlarının sayı, qaytarılmış əks əlaqə qəbzləri və əks əlaqə göstəricisi.

İSY informasiya rejimində işləyərkən köməkçi kartotekalardan istifadə olunur:

1.Abunəçilərin kartotekası (abunəçilər haqqında məlumatları ehtiva edir, hər bir abunəçiyə bir nömrə verilir) sistemin işini və hesabatlarını qeyd etmək üçün istifadə olunur;

2.Mövzu haqqında məlumatları və hər bir mövzu ilə maraqlanan bütün abunəçilərin nömrələrini əks etdirən, siqnal nüsxənin tirajını müəyyənləşdirməyə imkan verən tematik kartoteka (hər bölmə üçün abunəçilərin sayı ilə tematik bir rubrikator tərtib olunur);

3.Siqnal kartlarının kartotekası siqnal kartlarından ibarətdir, abunəçilər əks əlaqə qəbzləri sayəsində qiymətləndirilir. Abunəçi tərəfindən tələb olunan ədəbiyyat haqqında məlumat əldə etmək, həmçinin əks əlaqə qəbzlərinin qiymətləndirmələrinə əsasən məlumatların keyfiyyətini müəyyənləşdirmək üçün istifadə olunur. Sorğuların tarixləri ilə təşkil edilir;

1.baxılan mənbələrin kartotekası (əlifba sırası ilə).

## Nəticə

İnformasiyanın seçilmiş yayılması sistemləri kitabxana-informasiya xidmətinin xüsusi növü olub, bütün müəssisələrdə, o cümlədən dövlət qulluqçularına kitabxana xidməti göstərən müəssisələrdə geniş yayılmışdır. Bu sistem oxuculara kitabxana-informasiya xidməti göstərməklə yekunlaşmır, xidmətin keyfiyyətini də müəyyənləşdirməyə imkan verir.

## *Ədəbiyyat*


1. Гиляревский Р.С. Основы информатики: курс лекций.- Москва: Экзамен,- 2003.320 с.
2. ГОСТ 7.73—96: Система стандартов по информации, библиотечному и издательскому делу. Поиск и распространение информации. Термины и определения (введен в действие Постановлением Госстандарта РФ от 13.02.1997 №53). М. 1997.12 с.
3. Справочник библиотекаря / науч. ред. А.Н. Ванеев, В.А. Минкина. Санкт-Петербург: Профессия,- 2004
4. Перегоедова Н.В. Организация и методика библиографического П 26 информирования: Конспект лекций. - Новосибирск: ГПНТБ СО РАН,- 1999
5. Kunanets, N., Dobrovolska, V., Filippova, N., Parviz, K., Lypak, H., Duda, O., ... & Dubrovina, L. (2020, December). Designing the Repository of Documentary Cultural Heritage. In *Advances in Intelligent Systems and Computing V: Selected Papers from the International Conference on Computer Science and Information Technologies, CSIT 2020, September 23-26, 2020, Zbarazh, Ukraine* (pp. 1034-1044). Cham: Springer International Publishing.
6. Kazimi, P. F. Conflict of Relevance and Reliability of İnformation and the Global Network. Trends in Humanities and Social Sciences, ISSN: 2754-0855, 2021, Vol. 1 No. 1.

DOI:10.30546/gdu.2023.118-124

**ИЗ ИСТОРИИ ИЗБРАННОГО РАСПРОСТРАНЕНИЯ ИНФОРМАЦИИ КАК ОДНОГО ИЗ ОСНОВНЫХ СПОСОБОВ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ОБСЛУЖИВАНИЯ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ**

***Парвиз Казими Фирудин оглу, Гасанова Айсель Вагиф кызы***

***Резюме***

Основной целью статьи является изучение истории метода выборочного распространения информации, изучение его как одного из методов библиотечно-информационного обслуживания государственных служащих. В статье были вовлечены метод избранное распространения информации, который считается одним из методов библиотечно-информационного обслуживания государственных служащих. В первую очередь изучается история и технология этого метода. Исследуются требования к системе избранное распространения информации. При написании статьи использовались методы анализа и сравнения. Актуальность применения: материал может быть использован на лекциях и семинарах в высших учебных заведениях. Статья также полезна для тех, кто интересуется библиотечным делом и образованием.

**FROM THE HISTORY OF SELECTED DISSEMINATION OF INFORMATION AS ONE OF THE MAIN METHODS OF LIBRARY-INFORMATION SERVICE TO CIVIL SERVANTS**

***Kazimi Parviz Firudin, Hasanova Aysel Vagif***

***Summary***

The main purpose of the article is to study the history of the method of Selective Distribution of Information, to study it as one of the methods of library-information service to civil servants. The article involved the method of selected distribution of information, which is considered one of the methods of library and information services for civil servants. First of all, is studied the history and technology of this method. Are investigated requirements for the system of selected distribution of information. Analysis and comparison methods were used while writing the article. Application importance: the material can be used in lectures and seminars in higher education institutions. The article is also useful for those interested in librarianship and education.

***Rəyçi: tarix üzrə fəlsəfə doktoru, dos.Sevda Xələfova***
***Kitabxana-informasiya resurslarının idarəedilməsi kafedrasının iclasının 17.04.2023 protokolu.***
***Daxil olma tarixi 20 aprel 2023 cü il***